# "Biz xalqımızın yeni tarixini yazdıq"




***Azərbaycan dövləti, Silahlı Qüvvələrimiz, şəxsən Ali Baş Komandan İlham Əliyev son dörd-beş ayda, demək olar ki, hər gün regionda hansısa yeniliyə imza atır. Son iki yüz ildə ermənilərin ilk dəfə rüsvayçılıqla məğlub olması, Azərbaycan, Türkiyə, Rusiya, İran, Gürcüstan və başqa dövlətlərin iqtisadiyyatına xüsusi töhfələr verəcək yeni nəqliyyat-logistika layihələri, üçtərəfli əməkdaşlıq formatlarının yaradılması, işğaldan azad edilmiş ərazilərdə yeni infrastruktur layihələrinin icrasına başlanılması və digər bir çox məqamlar region ölkələrinin hamısında özünəməxsus əks-sədalar verməkdədir.***

Ancaq elə məqamlar da var ki, onlar təkcə verdiyi əks-səda ilə yadda qalmır, həm də milyonlarla soydaşımızın iftixarına çevrilir. Məsələn, Prezident İlham Əliyevin 39 il sonra – bu il yanvarın 15-də Şuşada – Cıdır düzündə səhər çayı içməsi və şanlı Qələbəmizdən sonra keçirdiyimiz ilk Novruz bayramının ilaxır çərşənbəsini Şuşada qeyd etməsi dünyanın bütün ölkələrinə səpələnmiş 50 milyonluq soydaşlarımızın fəxr etdiyi xəbərlərə çevrilmişdir.

Ümumiyyətlə, dövlət başçımızın işğaldan azad edilmiş rayon və şəhərlərimizə etdiyi istənilən səfər siyasi, iqtisadi, sosial mahiyyətdən daha çox, mənəvi əhəmiyyət kəsb edir. Çünki qondarma respublikanın Şuşada təşkil etdiyi hansısa tədbirdə iştirak etmək üçün bu qədim Azərbaycan şəhərinə gəlmiş ağıldankəm baş nazirin Cıdır düzündə "Yallı" oynaması, "Qarabağ Ermənistandır. Nöqtə" deməsi və digər əndazədənkənar əməlləri soydaşlarımızda bədbinlik hissi yaratmış, torpaqlarımızın işğaldan azad edilməsinə olan inamı, ümidi azaltmışdı. Ancaq Prezident İlham Əliyev, həmişə olduğu kimi, həmin məsələdə də xalqın inamını, ümidini bərpa etdi və ordumuz qaniçən düşmənə sarsıdıcı məğlubiyyət yaşatdı.

İndi artıq Ağdamda, Şuşada, Füzulidə nə erməni qarğaları qarıldayır, nə də "Qarabağ Ermənistandır" deməyə kiminsə gücü çatır. İndi artıq işğaldan azad edilmiş ərazilərimizin hər yerində Azərbaycan Bayrağı qaldırılır, "Qarabağ Azərbaycandır!" sədaları buludlardan da yuxarı ucalır.

Şəxsən mən – yaşı yetmişi haqlamış sadə azərbaycanlı dövlət başçımızın işğaldan azad edilmiş hansısa şəhərdə Azərbaycan Bayrağını qaldırması mərasimindən hazırlanmış televiziya reportajına baxarkən, istər-istəməz həmin məqamı ayaq üstdə alqışlayıram. Söhbət dövlətimizin ərazi bütövlüyünün bərpasından, dörd-beş ay əvvəl erməni bayquşları ulaşan ərazilərdə Azərbaycan Bayrağının qaldırılmasından, dünyanın ən nüfuzlu siyasətçilərindən olan İlham Əliyevin mənim, övladlarımızın, nəvələrimizin bayrağının qarşısında diz çökməsindən gedirsə, həmin məqamı ayaq üstdə alqışlamaq sadəcə borcumuzdur. Mənəvi borcumuz.

O, martın 15-dəki səfərinə giriş verirmiş kimi dedi: "Yenə işğaldan azad edilmiş torpaqlardayam. Bu gün Füzuli --Hadrut avtomobil yolunun təməlini qoyacağam. Bu avtomobil yolunun inşası azad edilmiş ərazilərin bərpası üçün böyük əhəmiyyət daşıyır. Bu, birinci layihə deyil. Artıq bir neçə yol layihəsi icra edilməkdədir. Azad edilmiş torpaqların bərpası başlamışdır. Füzulidən Şuşaya yol çəkilir -- Zəfər yolu çəkilir. Eyni zamanda, Bərdə-Ağdam yolunun çəkilişi yaxın gələcəkdə icra ediləcəkdir. Horadizdən Zəngilana qədər yol çəkiləcək. Bir sözlə, müharibədən dörd ay keçməsinə baxmayaraq, böyük quruculuq işləri başlamışdır".

> ***Biz xalqımızın yeni tarixini yazdıq, şanlı qəhrəmanlıq tarixini yazdıq və azad edilmiş torpaqlarda bu gün böyük quruculuq işləri aparılır, böyük infrastruktur layihələri icra edilir. Bu gün Bakıdan gələrkən, yenə də dağıdılmış Füzuli şəhərindən keçərkən bir daha gördüm ki, erməni vəhşiliyi hansı fəlakət törədib. Bu gün onları müdafiə edən, bu gün onların arxasında dayanan bəzi xarici dairələr gözlərini açıb görsünlər erməni vəhşiliyi nə günə salıb bizim şəhərlərimizi.***
>
> ***İlham ƏLİYEV***
> ***Azərbaycan Respublikasının Prezidenti***
>
> **Hadrut, 15 mart 2021-ci il**

Mən dövlət başçımızın və ailə üzvlərinin səfərinin "üvertürası" kimi qəbul etdiyim bu cümlələri eşidəndə bəzi həmkarlarımızın əvəzinə utandım. Özü də ciddi şəkildə. Çünki 44 günlük müharibə gedən günlərdə -- bizim Müdafiə Nazirliyimizin Hadrutun düşməndən azad edildiyi barədə məlumat verməsindən iki-üç gün sonra aramızda və sıramızda olan bəzi bədxahlarımız sosial şəbəkələrdən üzümüzə kinayə ilə baxaraq, "küyə getməyin, Hadrut hələ ermənilərdədir" -- deyirdilər.

Nə yaxşı ki, cənab Prezident martın 15-də Hadrutda olarkən, həmin məqamı yada saldı: "Onu da deməliyəm ki, artıq Hadrut bizim əlimizdə olan zaman Ermənistan rəhbərliyi, rəsmi şəxslər və eyni zamanda, Ermənistanın dəyirmanına su tökən bəzi xarici jurnalistlər bəyan edirdilər ki, Hadrut ermənilərin əlindədir. Mən bu günə qədər başa düşə bilmirəm ki, Ermənistan rəhbərliyi nə üçün öz xalqını aldadırdı. Biz dəqiq bilirdik ki, Hadrut bizdədir. Biz bilirdik ki, artıq Ermənistan ordusu burada tamamilə məhv edilib və sağ qalan erməni hərbçilər buradan qorxaqcasına qaçıb dağlarda gizlənmişdilər. Hadrut tam bizdə idi. Ancaq bəzi xarici jurnalistlər bildirirdilər ki, guya Hadrut ermənilərin əlindədir".

Dövlət başçımızın həmin səfəri zamanı eşitdiyimiz daha çox qabardılmalı arqumentlərdən biri də o idi ki, ermənilər bu ərazilərin onlara məxsus olmadığını yaxşı bilirdilər. Prezident ermənilərə və onların havadarlarına üz tutaraq deyir: "Otuz il torpaqlarımızı işğal altında saxlayan mənfur düşmən bir daşı-daş üstündə qoymayıb. Görün, yollar nə gündədir. Otuz il ərzində bu yollar asfalt görməyib. Onların bütün təbliğatı yalandır, bütün tarixi saxtadır. Özlərini dövlət adlandırırdılar... "Dövlət" idisə, bəs, niyə daş-daş üstə qoyulmayıb? Çünki bilirdilər ki, bu torpaq onların deyil. Bu torpaq azərbaycanlıların torpağıdır".

Azərbaycan Ordusunun 44 günlük müharibədə ortaya qoyduğu peşəkarlıq, mərdlik və cəsarət barədə son dörd ayda çox auditoriyalarda söz açılıb. Hətta bəzi ölkələrin hərbçi mütəxəssisləri bizim təcrübəmizi öyrənmək təşəbbüsü ilə də çıxış ediblər. Ancaq Azərbaycan əsgərinin hünəri barədə söz açılan növbəti auditoriya daha böyük idi. Həmin auditoriya lokal miqyasda Hadrutun daşını, torpağını, ağaclarını, suyunu, havasını əhatə edirdisə, geniş miqyasda dünyanın hər yerindəki erməni havadarlarına çatdırılırdı:

"Müharibə dövründə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Martuni rayonunun 50 faizdən çox hissəsi və keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Hadrut rayonunun 100 faiz ərazisi işğalçılardan azad edilmişdir. Bəziləri müharibənin yekunlarını şərh edərkən deyirlər ki, Azərbaycan yeddi rayonu azad edib, bu, belə deyil. Biz yeddi rayonu, Şuşa şəhərini, Suqovuşan qəsəbəsini, Talış qəsəbəsini, keçmiş Hadrut rayonunu, keçmiş Martuni rayonunun böyük hissəsini azad etmişik və tarixi ədaləti bərpa etmişik. Beləliklə, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edərkən tarixi nailiyyətlərə imza atmışdır".

Vəhşi qonşularımızın işğal altında saxladıqları ərazidəki qədim Alban kilsəsinə qarşı qeyri-insani münasibətini görən dövlət başçımız məscidlərimiz kimi həmin ibadət yerinin də bərpa ediləcəyini söylədi. Çünki Azərbaycan ərazisində bütün dinlərin məbədləri dövlət tərəfindən qorunur, dövlət tərəfindən tikilir və bütün dünya bunu bilir: "Ermənilərin vəhşiliyini dünya bilməlidir, görməlidir bizim məscidlərimiz nə gündədir. Azad edilmiş torpaqlarda 67 məscid var idi, cəmi ikisi qalıb, yarıdağılmış. Özü də onlardan müxtəlif məqsədlər üçün istifadə ediblər. Alban kilsəsini də bu günə qoyublar. Bəlkə burada da heyvan saxlayıblar, burada da dəmir-dümür saxlayıblar, orada o dəmir-dümürlərin bir hissəsi qalıb".

Fikrimizcə, Prezident və ailəsinin dünyanın ilk insan məskənlərindən olan Azıx mağarasına gəlməsi, dövlət başçımızın orada mağaranın tarixi və ərazinin mənsubiyyəti haqqında dediyi fikirlər erməni saxtakarlıqlarının ifşası baxımından xüsusi əhəmiyyət kəsb edirdi. Ancaq cənab Prezidentin "Azıx mağarasının girişindəyik. Təxminən 800 pillə qalxmışıq. Yaxşı idman etmişik, fiziki formamızı göstərmişik" – ifadəsi düşmən üçün, sözün həqiqi mənasında , göz dağı idi.

Çünki Azərbaycan əsgərinin "əlinin duzunu görmüş" ermənilər yaxşı bilirlər ki, ölkəmizi qarşıda daha böyük mübarizələr, layihələr və nailiyyətlər gözləyir. Ermənilər ona görə havalanırlar ki, şaxtalı havada, qarlı, buzlu yollarla, dağ yamacıyla 800 pillə qalxan sərkərdə bundan sonra da işğalçı dövlətə layiq olduğu yeri göstərəcək.

Hamı kimi ermənilər də bilirlər ki, qarşıda Azərbaycanı möhtəşəm Zəngəzur layihəsi gözləyir. Uğur olsun!

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***